# Qax məktəblisi: "Layihədə iştirak etdiyimə görə özümü xoşbəxt sanıram"

Artıq ikinci ildir respublikamızda "Ölkəmizi tanıyaq" devizi ilə tur-aksiyalr həyata keçirilir. Bu layihənin əsas məqsədi məktəblilərin asudə vaxtlarını səmərəli keçirmək, onları ölkəmizin gəzməli, görməli yerləri, tarixi məkanları, milli-mənəvi sərvətləri ilə tanış etməkdir. Sevinirəm ki, mən də bu aksiyanın iştirakçısıyam və buna görə özümü xoşbəxt sanıram.

Bu sözləri tur-aksiyanın iştirakçısı, Qax şəhərindəki 2 nömrəli məktəb-liseyin 9-cu sinif şagirdi Zaur Muradlı ekskursiyaya yola düşməzdən əvvəl müsahibəsində deyib.

Belə gəzintilərin məktəblilərin mənəvi cəhətdən formalaşmasına, hərtərəfli inkişafına müsbət təsir göstərdiyini vurğulayan Qax məktəblisi daha sonra deyib: "Ekskursiya zamanı Quba, Qusar və Xaçmaz rayonlarının təbiəti, tarixi məkanları, görməli



yerləri, muzeyləri, insanları ilə tanış olacağıq. Qayıtdıqdan sonra orada gördüklərimizi sinif yoldaşlarımıza, dostlarımıza danışacaq, onlarda olduğumuz bölgə barədə müəyyən təəssüratlar yaratmağa çalışacağıq. Biz məktəblilərə belə bir layihə hədiyyə etdiyinə görə Prezidentimizə minnətdarlığımızı bildiririk".

**AZƏRTAC**